Ölkələrarası hesabat barədə Bildirişə əlavə

**Bildirişin tərtib edilməsi**
**QAYDASI**

1. Bildiriş aşağıdakı kimi tərtib edilir:

1.1. Bildiriş əvvəlində göstərilən “Qeyd”dəki “verilmiş formanın tərtib edilməsi qaydalarını oxuyun” və “ +, /, %, Z simvollarından istifadə etməyin, böyük çap hərflərlə qara və ya göy diyircəkli qələmlə doldurun” tövsiyələrə ciddi əməl olunmalıdır. Bildiriş doldurularkən qaralamalara və düzəlişlərə yol verilmir.

1.2. “**Bildirişin təqdim edildiyi vergi orqanının adı**” sətrin xanalarında böyük çap hərfləri ilə hər xanada bir hərf yazmaqla qeydiyyatda olduğu vergi orqanının adı göstərilməlidir.

**Misal:**

Hesabatın təqdim edildiyi vergi orqanının adı bu qaydada yazılır:

| | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 3 | | S | A | Y | L | I | | Ə | R | A | Z | İ | | V | E | R | G | İ | L | Ə | R | | İ | D | A | R | Ə | S | İ |

1.3. Hesabatın “**Bildirişi təqdim edən müəssisə haqqında məlumat”** adlanan 1-ci bölməsində müəssisənin Bildirişin aid olduğu hesabat dövründə fəaliyyəti ilə bağlı ümumi məlumatları əks olunur.

1.3.1. 1 –ci sətirdə müəsissənin VÖEN-i qeyd olunur.

**Misal:** Müəsissənin **1500315641** saylı VÖEN-i hər rəqəm ayrı xanada olmaqla bu qaydada yazılır:

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | VÖEN | 1 | 5 | 0 | 0 | 3 | 1 | 5 | 6 | 4 | 1 |

1.3.2. 2 –ci sətirdə müəsissənin adı hər simvol ayrı xanada olmaqla qeyd olunur.

**Misal:** Hesabat “İnkişaf” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən təqdim edilərsə, müvafiq xanalarda vergi ödəyicisinin adı bu qaydada yazılır:

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2 | Müəsissənin adı | İ | N | K | İ | Ş | A | F | | M | M | C |

1.4. Hesabatın **“Hesabat verən müəssisə haqqında məlumat”** adlanan 2-ci bölməsinin **“Ölkələrarası hesabatı təqdim edən şəxs”** xanası bildirişi təqdim edən müəssisə tərəfindən o zaman işarələnir ki, həmin hesabat verən müəssisənin “Transmilli şirkətlər qrupuna daxil olan Azərbaycan Respublikasının rezidenti olan müəssisənin hesabatının vergi orqanına təqdim edilməsi Qaydaları”nın 3-cü bəndinə əsasən hesabat vermə öhdəliyi yaranır. Bu xana “Ölkələrarası Hesabatı təqdim edəcək” əsas müəssisənin və ya müvəkkil müəssisənin Azərbaycan Respublikasında qeydiyyatda olan vergi ödəyicisi olduğu halda işarələnir.

1.5. **“Bildirişi təqdim edən əsas müəssisə və ya müvəkkil müəssisə olmadığı halda, Ölkələrarası hesabatı təqdim edəcək müəssisə barədə məlumat”** xanası Bildirişi təqdim edən müəssisənin Transmilli şirkətlər qrupunun əsas müəssisəsi və ya müvəkkil müəssisəsi olmadığı halda işarələnir. Bu halda, müvafiq xanalarda Ölkələrarası hesabatı təqdim edəcək müəssisənin adı, rezident olduğu ölkə, həmin hesabatın təqdim ediləcəyi ölkənin adı və statusu (əsas müəssisə və ya müvəkkil müəssisə olub-olmaması) əks etdirilir.

1.6. **“Transmilli şirkətlər qrupunun maliyyə ili barədə məlumat”** hissəsində təqdim ediləcək hesabatın əhatə etdiyi maliyyə ilinin başlanğıcı və son tarixi əks etdirilir.